# Azərbaycanda rabitənin 135 illik inkişaf tarixi – informasiya cəmiyyətinə keçid

***Qloballaşan dünyamızı bu gün rabitəsiz təsəvvür etmək çox çətindir. Dünya ölkələri hazırda genişmiqyaslı rabitə sistemləri ilə bir-birinə bağlanmışlar. Bu bağlılıq onu yaradan sistemlərin tarixən təkmilləşməsi nəticəsində mümkün olmuşdur. Azərbaycan da bu gün rabitə sistemlərinin inkişafına görə dünyanın qabaqcıl ölkələri ilə rəqabətə girməyə hazırdır. Ölkəmizdə rabitənin zəngin inkişaf tarixi var. Məlumatların qasidlər, çaparlar, dəvə karvanları vasitəsilə ötürülməsi ilə bağlı faktlar buna misal ola bilər.***

Dövlət səviyyəsində poçtun əsası 1501-ci ildə Səfəvilər dövlətinin başçısı Şah İsmayıl Xətai tərəfindən qoyulub. Müasir formada poçtun yaranması isə XIX əsrin birinci yarısına təsadüf edir.

Dünyada telefon rabitəsinin tarixi 1876-cı ildən başlayır. İlk telefon aparatı Amerikada həmin il A. Bell tərəfindən nümayiş etdirilmiş, 1877-ci ildə isə ilk telefon kommutatoru istismara verilmişdir. Avropaya keçən telefon tezliklə Rusiyaya və Bakıya çatmışdır. Bakıda isə ilk telefon xətti "Nobel qardaşları Cəmiyyəti" tərəfindən 1881-ci il dekabrın 6-da çəkilmişdir. Həmin dövrdə təkcə şəhər mərkəzində deyil, şəhərətrafı kəndlərlə də telefon əlaqəsi yaradılmışdır. Bakı-Balaxanı arasında 36 birləşdirici xətt işləmiş və 300 abunəçiyə xidmət etmişdir. 1911-ci ildə isə Tiflis-Bakı-Yelizavetpol istiqamətində telefon xətti çəkilərək istifadəyə verilmişdir.

1918-ci il oktyabrın 6-da Azərbaycan Demokratik Cümhuriyyətinin Poçt və Teleqraf Nazirliyi yaradılmışdır. 1928-1929-cu illərdə Tiflis, Yerevan, Qroznı, Rostov, Moskva, Leninqrad şəhərləri ilə şəhərlərarası telefon rabitəsi, respublika daxilində isə Hacıqabul, Salyan, Kürdəmir, Ucar, Göyçay, Ləki, Yevlax, Bərdə, Ağdam, Xankəndi, Nuxa, Gəncə, Ağstafa, Qazax, Şamaxı, Xızı və Quba rayonları arasında telefon rabitəsi mövcud idi.

Ötən əsrin 50-ci illərinin sonlarında Azərbaycanda rabitənin inkişafında ən ciddi problem mütəxəssislərin çatışmaması idi. Buna görə də bu sahədə mütəxəssislərin yetişdirilməsi məsələsi gündəmə gəlmişdir. 1959-cu ildə Azərbaycan SSR Nazirlər Soveti respublikanın ali məktəblərində yüksək ixtisaslı rabitəçi mütəxəssislər hazırlanması barədə qərar qəbul etmiş, 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunda "Telefon və teleqraf rabitəsi" ixtisası üzrə mühəndislərin ilk buraxılışı olmuşdur. 1964-cü il yanvar ayının 31-də Bakı Televiziya Mərkəzi Moskvadan Mərkəzi Televiziyanın verilişlərinin retranslyasiyasına başlamışdır. 1968-ci ildək respublikada televiziya proqramının yayımı aran bölgələrində yerləşən Əli Bayramlı (Şirvan), Göyçay və Gəncə şəhərlərini əhatə etmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycan rabitəsində müəyyən işlər görülsə də, 60-cı illərdə respublikamız bu sahədə İttifaqın digər respublikalarından çox-çox geri qalırdı. Yalnız 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra digər sahələrlə yanaşı, rabitə də güclü inkişaf yoluna qədəm qoyub.

Bir neçə fakta diqqət yetirək. 1976-cı ildə təkcə Bakı telefon şəbəkəsinin gücü 1927-ci illə müqayisədə 20 dəfədən çox artmış, telefon Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsinə çevrilmişdi. Bu dövrdə rabitənin inkişafı təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb, respublikanın digər bölgələrini də əhatə edib. Bu illərdə Gəncədə, Naxçıvanda və digər şəhər və rayonlarda, kənd və qəsəbələrdə də ATS tikintisi aparılıb.

Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı sahələri də diqqətəlayiq inkişaf yolu keçib. Bakıda poçtamt binasının, Rabitə evinin, onlarca rayon mərkəzində rabitə qovşaqları, bundan başqa respublikada 300-dən çox poçt şöbəsi üçün binaların tikintisi o dövrdə reallaşıb.

1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən Bakıda, köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik yeni teleqüllənin layihəsi təsdiq edilib və 1981-ci ildə obyektin tikintisinə başlanıb. Buna baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən yeni teleqüllənin istismara verilməsi ləngidilsə də, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza ikinci dəfə rəhbərlik etdiyi dövrdə onun diqqət və qayğısı sayəsində xalqımızın istifadəsinə verilib.

Ötən əsrin 80-ci illərinin sonlarından məlum səbəblərdən rabitənin inkişaf sürəti kəskin zəifləyib. İnkişafın yeni mərhələsi isə ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə bağlıdır. 1993-cü ildən tədricən bərqərar olan sabitlik şəraitində respublikaya xarici investorlar cəlb olunub, rabitə sahəsinin inkişafında əsl dönüş də bundan sonra başlayıb. Türkiyənin "Teletaş" və "Netaş" şirkətləri tərəfindən Bakıda, Sumqayıtda, Gəncədə və digər bölgələrdə müasir elektron tipli ATS-lər qurulmuş, "Aztelekom" İstehsalat Birliyində 2000 kanallı beynəlxalq telefon stansiyası, 6150 kanallı respublika daxili Şəhərlərarası telefon stansiyası, ABŞ-ın "Motorola" şirkətinin investisiyası ilə sellülar rabitə xidməti göstərən "Bakcell", Türkiyə rabitəçiləri ilə "Azərcell" və digər birgə müəssisələr yaradılıb. Bütün bunlar Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan milli rabitəsinin parlaq inkişaf yolunun yeni mərhələsi idi.

Rabitənin inkişafında 1998-ci ildə qazanılmış uğurlar xüsusilə vurğulamaq lazımdır. Mütəxəssislərin fikrincə, həmin il rabitə sistemində əsl inqilab baş vermişdir. Belə ki, respublikamızda 108 min nömrəyə yaxın tutuma malik elektron tipli müasir ATS-lər qurularaq istifadəyə verilib.

1993-2003-cü illərdə görülən işlər nəticəsində ölkənin telefon şəbəkəsinin 48,4 faizi, o cümlədən Naxçıvan Muxtar Respublikasının telefon şəbəkəsi 100 faiz elektronlaşdırılıb. Heydər Əliyevin 17 fevral 2003-cü ildə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın (2003-2012-ci illər) təsdiq edilməsi haqqında" sərəncamı ölkəmizdə informasiya cəmiyyəti quruculuğu yolunda uğurlu bir addım idi.

Milli strategiyanın əsas məqsədi ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə sosial-iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsidir. Bu məqsədə çatmaq üçün görülən tədbirlər öz müsbət nəticəsini verdi.

Ulu öndərin siyasi kursunun uğurlu davamçısı İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdən informasiya cəmiyyətinə doğru çox inamlı addımlar atıldı. Ölkə Prezidenti xüsusi sərəncamla məktəblərin kompüterləşdirilməsi ilə bağlı Dövlət Proqramını təsdiq etdi. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər) və sonralar qəbul olunan dövlət proqramları informasiya cəmiyyəti qurucularının yetişdirilməsinə güclü stimul yaratdı. İndi artıq ölkənin bütün məktəblərində kompüterdən istifadə adi hala çevrilmişdir.



Prezident İlham Əliyevin 7 mart 2014-cü il tarixli sərəncamına əsasən yaradılmış Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi informasiya cəmiyyətinə keçidin formalaşdırılmasında əhəmiyyətli rol oynadı. Nazirlik Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi əsasında yaradılmışdır. Yüksək texnologiyalar dövrümüzün daha çox mütərəqqi və elm tutumlu texnologiyalarıdır, eləcə də onlardan və onlara əsaslanan texniki vasitələrdən istifadəyə keçid indiki mərhələdə elmi-texniki inqilabın mühüm amilidir. Məhz buna görə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində məqsədi qabaqcıl texnologiyaları Azərbaycana gətirmək, Azərbaycanda elm tutumlu sənayenin inkişafına xidmət edən Yüksək Texnologiyalar üzrə Tədqiqat və İnkişaf Mərkəzi yaradılıb. Bütün bunlar müasir dövrün tələbi idi.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" İKT-nin ölkəmizdə gələcək inkişafının yeni konturlarını müəyyənləşdirmişdir. Bu strategiya informasiya cəmiyyətinin əsaslarının yaradılması, vətəndaşlar, cəmiyyət, özəl sektor və dövlət orqanları tərəfindən İKT-dən geniş istifadənin növbəti mərhələdə planlaşdırılması üçün əlverişli şərait yaradır. O, cəmiyyətin müasir rabitə və informasiya texnologiyalarına olan tələbatı, dünya təcrübəsi, beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ), Avropa İttifaqının, UNESCO-nun tövsiyələri, "Açıq hökumət təşəbbüsü" nəzərə alınmaqla hazırlanmışdır. Strategiya İKT sahəsinin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi üzrə dövlətin siyasətini əks etdirir, əsas məqsəd və vəzifələri, prioritetləri və fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir.

Son dövrlər Azərbaycanda informasiya texnologiyalarının kütləviləşməsi, bu sahənin inkişafı üçün nəzərəçarpacaq addımlar atılıb, dövlətin ciddi dəstək və qayğısı nəticəsində uğurlar əldə olunub. Xüsusilə, "elektron hökumət" informasiya portalının formalaşması istiqamətində həyata keçirilən tədbirlər informasiya cəmiyyəti yaradılması yolunda mühüm addım hesab edilməlidir.

Elektron xidmətlərin genişləndirilməsi sahəsində ölkənin əsas hədəflərini əks etdirən "2014-2016-cı illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı" bu gün uğurla reallaşdırılmaqdadır. Bu proqramın məqsədi "elektron hökumət"in formalaşdırılması və elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində ölkədə indiyədək aparılmış işlərin davam etdirilməsi, bu sahədə ardıcıl və məqsədyönlü addımların atılması ilə müasir informasiya cəmiyyətinin tələblərinin təmin edilməsidir.

Ölkəmizdə "elektron hökumət", "elektron dövlət", onun ayrı-ayrı komponentləri olan "elektron parlament", "elektron məhkəmə", "elektron vergi" və sair --bunlar hamısı ümumilikdə bir məzmun kimi "elektron Azərbaycan"ı gündəmə gətirir. "Elektron hökumət"in yaradılması təbiidir ki, qısa müddətin işi deyil. Bu, informasiya cəmiyyətinin formalaşması prosesinin bir təzahürüdür. Bu proses get-gedə dərinləşir, yeni texnologiyalar ortaya çıxır, informasiya resurslarının sayı da, həcmi də artır. İnsanlar informasiya texnologiyalarına yaxından bələd olur, onun imkanlarından istifadə edir. Mobil telefon texnologiyaları kimi, artıq onlar özlərini bu texnologiyalardan kənarda hiss etmirlər. Yəni bu, o deməkdir ki, bütün sosial təbəqələr artıq bu texnologiyalardan istifadə etməklə hakimiyyət orqanları ilə interaktiv münasibət qurmağa başlayıblar.

İndi Azərbaycanda İKT-nin imkanlarından geniş şəkildə istifadə olunur. İKT sektoru neftdən sonra ölkə iqtisadiyyatında ikinci prioritet sahə hesab olunur. İKT-nin ölkə iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğu Prezident İlham Əliyev tərəfindən də dəfələrlə bəyan edilib. Təsadüfi deyil ki, cənab Prezident 2013-cü ili ölkədə "İKT ili" elan etmişdi.

Qeyd edək ki, ictimai şüurda İKT-dən biznesdə, siyasətdə, idarəetmədə, səhiyyədə, mədəniyyətdə, elmdə, təhsildə, sənayedə və digər sahələrdə istifadə məsələlərinin aktuallığı və zəruriliyi tam qəbul olunmuşdur. Müasir dövrdə məlumat almaq imkanı güclü olan vətəndaş cəmiyyətinin qurulması gələcək bəşər sivilizasiyasına doğru mühüm addımdır. Hazırda İKT-dən geniş istifadə hər bir ölkənin sosial-iqtisadi inkişafına kömək edir və yoxsulluğun azaldılmasında səmərəli vasitə rolunu oynayır. Ölkəmizdə də bu sahədə çox əhəmiyyətli layihələr reallaşdırılır. Qlobal informasiya mühitinin yaradılması, sosial və iqtisadi fəaliyyətin yeni formalarının meydana gəlməsi, informasiya və bilik bazarının yaradılması, müxtəlif səviyyədə informasiya mübadiləsi sistemlərinin inkişafı, vətəndaş və təşkilatların istənilən məlumatı almaq, onu yaymaq və ondan istifadə etmək kimi hüquqlarının tam təmin edilməsi və sair bu istiqamətdə atılan uğurlu addımlardır.

Cəmiyyətin informasiyalaşdırılması ölkə iqtisadiyyatının bütün sahələrində səmərəliliyin artırılmasına, qiymətlərin endirilməsinə, dövlət orqanlarında elektron sənəd mübadiləsinin, elektron ticarət sistemlərinin tətbiqinə, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə kömək göstərəcəkdir.

İKT-nin qeyri-neft sektorundakı rolunun artması onu deməyə əsas verir ki, Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sürətlə irəliləməkdədir. Yaxın gələcəkdə başqa sahələrdə olduğu kimi, informasiya cəmiyyəti quruculuğu sahəsində də Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə rəqabətə girə biləcək.

*Mehdi MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"*

***Məqalə "Azərbaycanda rabitənin 135 illik inkişaf tarixi – informasiya cəmiyyətinə keçid" mövzusunda keçirilən müsabiqəyə təqdim olunur.***